

*Əjdər Qiyaslı*
*iqtisadçı alim, şair*

## N U R L A   D O L U D U

*Xalqımızın dəyərli yetirməsi və gözəl şəxsiyyət Arif Baxşəliyevin əziz və unudulmaz xatirəsinə*

Yaxşılar dünyadan köçüb gedəndə,
Elə bil çiçək də solur çəməndə.
Sən də yaxşısıydın ən yaxşıların,
Heç əskik olmazdı bağında barın.
Yaxşılıq etdikcə gülərdi gözün,
Könül məlhəmiydi hikmətli sözün.
Tanrı vergisiydi üzündə nurun,
Dağa bənzəyirdi mətin qürurun.
Köməyə çatardın olsan da harda,
Əyilən deyildin çətində, darda.
Həmişə deyərdin: Özüməm, özüm,
Körpüdə tağ idin, qayada dözüm.
Bunları görürdü yaxının, yadın;
Hamıya bəllidi kökün, soyadın.
O kökə hopubdur yüksək dəyərlər,
Ot kökü üstündə bitər, - deyərlər.
Atanın öyüdü, ananın südü,
Sənintək qeyrətli övlad böyüdü...
Silinməz iz qoydu atan Baxşəli,
Bu gün də yaşayır eşqi, əməli.
Onun çılçırağı daha gur yanır,
Şirin xatirə tək çox xatırlanır.
Ölməzlik qazandı o öləndə də,
Könül sevincini tən böləndə də.
Gözü olmamışdı dünya zərində,
Layiqli övladlar qoydu yerində:
Gövhər xanım salır hər an yadına,
Ucalıq gətirir ata adına.
Mətin dayağıdır körpüdə tağın,
Böyük sarvanıdır şərqşünaslığın.

Zirvələr fəth edir onun karvanı,
Hər səhər üfüqdə sökülür danı.
Yaxına buraxmır dumanı, çəni;
Canından çox sevir Xalqı, Vətəni...
Adil də sadiqdir kök-soyadına,
Şan-şöhrət gətirir elin adına.
Tibbin yollarında çıraq yandırır,
Xəstə ürəkləri ziyalandırır.
Zəkası qəlblərə nurlu şəfadı,
Hər sözü, söhbəti gözəl səfadı.
Ömrünə zinətdi məsləki, andı;
Tanrının bəxşişi - böyük loğmandı.
Belədi Arifin bacı, qardaşı;
Ömrünün, gününün könül sirdaşı.
Məqamı, amalı haqqın yoludu;
Məzarı əbədi nurla doludu!